Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 27 ” noyabr tarixli
395 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# “Azıx-Tağlar Arxeoloji Parkı” Dövlət Qoruğunun

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. “Azıx-Tağlar Arxeoloji Parkı” Dövlət Qoruğu (bundan sonra – Qoruq) Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 21 oktyabr tarixli 1274 nömrəli Sərəncamı ilə yaradılmışdır və ərazisində yerləşən tarixi və mədəni irsə aid elementlərin, daşınar və daşınmaz abidələrin elmi, tarixi və mədəni cəhətdən öyrənilməsini, təbliğini, məqsədyönlü istifadəsini, qorunub saxlanılmasını və inkişafını təmin edən elmi tədqiqat müəssisəsi statusuna malik dövlət təşkilatıdır.

1.2. Qoruq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Qoruq öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, qüvvədə olan digər normativ hüquqi aktları, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin normativ hüquqi aktlarını, həmçinin digər aktlarını, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin (bundan sonra – Dövlət Xidməti) əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Qoruq dövlət büdcəsindən maliyyələşən təşkilatdır, xəzinə hesabına, Nazirliyin və öz adı həkk olunmuş möhürə, müvafiq künc ştamplarına və blanklara malikdir. Qoruğun öz emblemi ola bilər.

1.5. Qoruq fəaliyyətinə dair illik hesabatı Dövlət Xidmətinə təqdim edir.

1.6. Qoruğun ərazisində yerləşən abidələrin, təbiət və landşaftın təhlükəsizliyini, onların funksional təyinatını, memarlıq-estetik görünüşünü və uzunömürlülüyünü təmin etmək məqsədilə Nazirliyin təklifi əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Qoruğun sərhədləri və mühafizə zonası təsdiq edilir.

1.7. Qoruğun ərazisində yerləşən tarix-mədəniyyət abidələri, torpaq, su, yerin təki, bitkilər və heyvanat aləmi mövcud qanunvericiliyə əsasən meşə fonduna aid ərazilərdə meşə mühafizəsi və bərpası tədbirləri istisna olmaqla, təsərrüfat istifadəsindən və mülki dövriyyədən tamamilə və ya qismən çıxarılır və Qoruğun daimi istifadəsinə verilir.

1.8. Qoruğun ərazisindəki abidələrin üzərində mülkiyyət, icarə və istifadəyə dair münasibətlər “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

## 2. Qoruğun fəaliyyət istiqamətləri

2.1. Qoruğun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Qoruğun ərazisində dövlət nəzarətinin həyata keçirilməsi;

2.1.2. Qoruğun sahəsinə aid proqnozlaşdırma və planlaşdırma işlərinin təşkili və Qoruğun inkişafının təmin edilməsi;

2.1.3. Qoruğun ərazisində yerləşən abidələrin elmi, tarixi və mədəni cəhətdən öyrənilməsi, onlardan məqsədyönlü istifadənin təşkili və qorunub saxlanılmasının təmin edilməsi;

2.1.4. Qoruğun ərazisində yerləşən abidələrin həcm-planlaşma quruluşunun qorunması, tarix-memarlıq abidələrinin bərpasının, toxunulmazlığının və onlardan istifadənin təmin edilməsi;

2.1.5. Qoruğun ərazisində və mühafizə zonasında yerləşən tarix və mədəniyyət abidələrində aparılan konservasiya, inşaat-möhkəmləndirmə, abadlıq, bərpa, rekonstruksiya, regenerasiya işlərinə nəzarət edilməsi;

2.1.6. Qoruğun sahəsinə aid dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak;

2.1.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlər.

2.2. Elmi tədqiqatların aparılması metodları Qoruğun rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq, hazırlanmış elmi təkliflər tətbiq edilə bilər.

## 3. Qoruğun vəzifələri

3.1. Qoruq bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. Qoruğun idarə edilməsi ilə bağlı müvafiq planları hazırlayır, Dövlət Xidməti ilə razılaşdırır və həyata keçirir;

3.1.2. öz sərhədləri və mühafizə zonası daxilində abidələrin, tikililərin bərpası və təmirinin planlaşdırılması və təşkili üçün Dövlət Xidmətinə müraciət edir. Nazirlik həmin işlərin həyata keçirilməsinə nəzarət edir, abidələr üçün hər hansı təhlükə yarada bilən təmir işlərinin aparılması ilə əlaqədar təhlükəsizlik tədbirlərini müəyyənləşdirərək müvafiq qaydada işlər görür;

3.1.3. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Qoruğun ərazisində minatəmizləmə fəaliyyəti həyata keçirilərkən daşınmaz tarix və mədəniyyət abidələri aşkar edildiyi halda, bu barədə Nazirliyə məlumat verir, həmin ərazidə minatəmizləmə fəaliyyətinin Nazirliyin icazəsi ilə davam etdirilməsinə nəzarət edir;

3.1.4. Qoruğun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin və tikililərin inventarlaşdırılmasını aparır, səlahiyyətləri daxilində texniki pasportlaşmanı həyata keçirir, ərazidə abidələr aşkar edildikdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada onların siyahıya və dövlət qeydiyyatına alınması üçün Dövlət Xidmətinə müraciət edir;

3.1.5. Qoruğun sərhədləri daxilində abidələr üçün hər hansı təhlükə yarada biləcək təmir işlərinin aparılmasına qadağa qoyur, bununla əlaqədar təhlükəsizlik tədbirlərini müəyyənləşdirir və tətbiq edir;

3.1.6. Qoruğun ərazisində turizmi inkişaf etdirir, turist marşrutlarını müəyyən edir və bununla bağlı infrastrukturun yaradılmasını təşkil edir;

3.1.7. biblioqrafik tədqiqatların, tarixi araşdırmaların həyata keçirilməsini, habelə təbiəti mühafizə tədbirlərini təşkil edir, abidələrin aşkar edilməsi, öyrənilməsi və təbiətin qorunması üçün mütəxəssislər cəlb edir;

3.1.8. abidələrin elmi, mədəni və tarixi əhəmiyyətini təbliğ edir, bu məqsədlə sərgilərin, fotostendlərin, ekskursiyaların, mühazirələrin təşkili, sənədli və qısametrajlı filmlərin, reklam roliklərinin hazırlanması, elmi-kütləvi ədəbiyyatın nəşri üçün müvafiq tədbirlər görür;

3.1.9. Qoruğun ərazisində qanunvericiliyə uyğun olaraq, arxeoloji qazıntı işlərinin aparılmasını müvafiq qaydada təşkil edir, abidələrin öyrənilməsinə, arxeoloji qazıntıların aparılmasına və bu növ digər işlərə nəzarət edir. Arxeoloji abidələrin qazıntısına və aşkar edilməsinə Azərbaycan Milli Elmlər Akademiyasının icazəsi olduqdan və Nazirlikdə qeydə alındıqdan sonra yol verilir. Arxeoloji qazıntı zamanı Qoruğun ərazisində aşkar olunan tarix və mədəniyyət abidələri Qoruğun fonduna təhvil verilir;

3.1.10. Qoruğun ərazisində baş verə biləcək fövqəladə halların qarşısının alınması üçün müvafiq tədbirlər görür;

3.1.11. Qoruğun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunmasını, müəyyən olunmuş xüsusi rejimin saxlanılmasını təmin edir, qorunan obyektlərin daimi mühafizəsini təşkil edir, tarix və mədəniyyət abidələrinin funksional təyinatının, memarlıq-estetik görünüşünün və uzunömürlülüyünün təmin edilməsi üçün müvafiq tədbirlər görür;

3.1.12. Qoruğun ərazisində abidələrin mühafizəsi və istifadəsi zamanı baş vermiş qanunazidd halların aradan qaldırılması üçün müvafiq tədbirlər görür, qanunvericiliyin tələblərini pozmuş şəxslər barədə müvafiq dövlət orqanlarına məlumat verir;

3.1.13. Qoruğun elmi fondunun müddətsiz saxlanılmasını təmin edir;

3.1.14. Qoruq gəlirindən mövcud qanunvericilik əsasında büdcəyə vergilər ödəyir;

3.1.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

## 4. Qoruğun hüquqları

4.1. Qoruq öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. Qoruğun ərazisində yerləşən tarix və mədəniyyət abidələrini, təbii landşaftı qoruyub saxlayır;

4.1.2. Qoruğun ərazisində qanunvericiliyə zidd olaraq görülən hər hansı abadlıq, bərpa, rekonstruksiya, regenerasiya və təmir-tikinti işlərinin aparılmasına, habelə minatəmizləmə fəaliyyətinin həyata keçirilməsinə qadağa qoyur;

4.1.3. Qoruğun ərazisində və ya mühafizə zonasında yerləşən dövlət (bələdiyyə) mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin Dövlət Xidmətinin razılığı olmadan istifadəyə, o cümlədən icarəyə verilməsinə aid işləri dayandırır;

4.1.4. Qoruğun ərazisində və ya mühafizə zonasında yerləşən abidələr üçün hər hansı təhlükə yaratmayan təmir-tikinti və inşaat işlərinin görülməsini Dövlət Xidmətinin razılığı ilə həyata keçirir;

4.1.5. Qoruğun ərazisində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsini, elmi tədqiqat, təlim-tərbiyə, turizm və rekreasiya məqsədlərini həyata keçirir;

4.1.6. sahə üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün təkliflər verir;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri Dövlət Xidməti ilə razılaşdırmaqla qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb edir;

4.1.8. Qoruğun ərazisində mədəni-kütləvi tədbirlərin keçirilməsində, müvəqqəti və daimi xidmətlər göstərən obyektlərin yaradılmasında, özəl və dövlət qurumları ilə müqavilə əsasında birgə fəaliyyətdə iştirak edir, müxtəlif növ pullu xidmətlər göstərməklə qanunvericiliyə zidd olmayan gəlir əldə edir;

4.1.9. qanunvericiliklə müəyyən edilmiş qaydada Qoruğa aid buklet, açıqça və digər nəşrlər buraxır, internet saytı yaradır, Qoruğu sosial şəbəkələrdə təbliğ edir;

4.1.10. Qoruğun ərazisində kütləvi tədbirlərin, konfrans və seminarların keçirilməsini təşkil edir.

4.2. Qoruq müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin təşkil edilməsi məqsədilə Elmi Şura yarada bilər. Elmi Şuranın tərkibi Qoruğun təklifi və Dövlət Xidmətinin təqdimatı ilə Nazirlik tərəfindən təsdiq edilir.

## 5. Qoruğun xüsusi mühafizə rejiminin xüsusiyyətləri və ərazisində yerləşən abidələrdən istifadə qaydaları

5.1. Qoruğun ərazisində yerləşən tarix-mədəniyyət abidələrindən Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada istifadə oluna bilər.

5.2. Qoruğun ərazisində yerləşən elmi, tarixi, mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri tətbiq edilməklə dövlət tərəfindən qorunur.

5.3. Qoruğun ərazisində yerləşən abidələrdən və torpaqdan istifadə edən hüquqi və fiziki şəxslərlə abidələrin və istifadə etdiyi ərazinin qorunması üçün müəyyən olunmuş qaydada mühafizə müqavilələri bağlanılır.

5.4. Qoruğun ərazisində mədəni xidmət sahələri, rekreasiya zonaları, yaşıllaşdırma sahələri və nəqliyyat vasitələrinin hərəkəti müvafiq qaydada təşkil edilir, abidələrə yaxın olan və ya onların mühafizə zonasından keçən yol sahələrində boru kəmərləri, elektrik xətləri və digər kommunikasiyalar, eləcə də nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaratdıqda, onların məhdudlaşdırılması və ya qadağan edilməsi üçün qanunvericiliyə uyğun qaydada tədbirlər görülür.

5.5. Qoruğun ərazisində aşağıdakılar qadağandır:

5.5.1. tarix və mədəniyyət abidələrinin korlanması və ya məhv edilməsi, Nazirliklə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması;

5.5.2. tarix-mədəniyyət abidələrinə və təbii landşafta təhlükə yaradan hər bir fəaliyyət;

5.5.3. geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması;

5.5.4. xüsusi ekoloji təhlükə yaradan kimya sənayesi, metallurgiya, nüvə energetikası və digər müəssisələrin fəaliyyəti;

5.5.5. müəyyən edilmiş yerlərdən kənar nəqliyyat vasitələrinin hərəkəti və dayanacaqların təşkili, çadırların qurulması və tonqalların yandırılması.

5.6. Qoruğun ərazisində tarix, mədəniyyət, elmi, estetik, rekreasiya dəyərini aşağı sala bilən fəaliyyət növləri qanunvericiliklə müəyyən edilmiş qaydada məhdudlaşdırıla və yaxud qadağan edilə bilər.

## 6. Qoruğun maliyyələşdirilməsi

6.1. Qoruğun maliyyələşdirilmə mənbələri aşağıdakılardır:

6.1.1. dövlət büdcəsindən ayrılan vəsait;

6.1.2. əhaliyə göstərilən mədəni və turizm xidmətlərindən, habelə qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növlərindən alınan gəlirlər;

6.1.3. dövlət, ictimai və digər təşkilatlardan, müqavilə əsasında keçirilən tədbirlərdən əldə edilən gəlirlər;

6.1.4. hüquqi və fiziki şəxslərin xeyriyyə vəsaitləri və ianələr;

6.1.5. qanunvericilik aktları ilə qadağan olunmayan digər mənbələrdən daxil olan vəsaitlər.

## 7. Qoruğun fəaliyyətinin təşkili

7.1. Qoruğun fəaliyyətinə Dövlət Xidmətinin təqdimatı ilə Azərbaycan Respublikasının mədəniyyət naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

7.2. Qoruğun direktoru Qoruğa həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

7.3. Qoruğun baş fond mühafizi, direktorunun müavinləri və baş mühasibi Qoruğun direktorunun təqdimatı ilə Dövlət Xidməti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər. Qoruğun digər işçiləri Dövlət Xidməti ilə razılaşdırılmaqla Qoruğun direktoru tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunurlar.

7.4. Qoruğun direktoru:

7.4.1. Qoruğun fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

7.4.2. Qoruğu bütün idarə, təşkilat və müəssisələrdə etibarnaməsiz təmsil edir;

7.4.3. Qoruğun işçiləri arasında vəzifə bölgüsünü aparır, onları mükafatlandırır, intizam məsuliyyətinə cəlb edir, əmək və icra intizamına nəzarət edir və onlara etibarnamələr verir;

7.4.4. öz səlahiyyətləri daxilində əmr və sərəncamlar verir;

7.4.5. Qoruğun yarımillik, illik və perspektiv iş planlarının tərtib olunmasını təmin edir, elmi tədqiqat işlərinin yerinə yetirilməsi və Qoruğun ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş xüsusi rejimə əməl edilməsi üçün tədbirlər görür;

7.4.6. müəyyən olunmuş qaydada ştat cədvəlinin dəyişdirilməsi haqqında təkliflər verir.

7.5. Qoruğun baş fond mühafizinin vəzifələri aşağıdakılardır:

7.5.1. inventar kitabına əsasən ona tapşırılmış tarix və mədəniyyət abidələrinin mühafizəsinə cavabdehdir;

7.5.2. Qoruğun fondlarının mühafizəsini və tam uçotunu təmin edir, eksponatların elmi təsvirinin verilməsi (pasportlaşdırılması), həmçinin bərpaya ehtiyacı olan eksponatların aşkar edilməsi və bərpası işini təşkil edir. Qoruğun fondunun mühafizəsi, uçotu və ərazidə bərpa işlərinin təkmilləşdirilməsi üzrə tədbirlər hazırlayır. Fond xəzinəsi işlərinin asanlaşdırılması məqsədilə tədbirlər görür. Kolleksiya kataloqlarını, fond materiallarının icmalını, metodik tövsiyələri nəşrə hazırlayır;

7.5.3. elmi tədqiqat işi aparır, müşavirə, konfrans və seminarlarda mühazirə və məruzələrlə çıxış edir, məsləhətlər verir, müəyyən olunmuş forma üzrə uçot və hesabat işlərini təşkil edir;

7.5.4. Qoruğun abidələrinin toxunulmazlığının təmin edilməsi üçün ərazisində müxtəlif təsvirlərin və yazıların yerləşdirilməsinə, razılıq olmadan Qoruğun sərhədləri daxilində abidələrdən istifadə olunmasına, ərazidə od qalanmasına, müxtəlif məclislərin keçirilməsinə yol vermir, üzərində tarixi yazılar, ornament, relyef və qayaüstü təsvirlər olan daşlara xüsusi diqqət yetirir, ərazidə olan dəyişiklik, dağıntı və söküntülər, habelə ondan qanunsuz istifadə halları barədə rəhbərliyə və müvafiq orqanlara məlumat verir, Qoruğun mühafizə zonasında icazəsiz tikinti, torpaq, kənd təsərrüfatı, arxeoloji qazıntı işlərinin aparılmasına, ərazidə yeraltı, yerüstü partlayış işlərinə, abidələrin tədqiqinə, onlara məxsus bədii təsvirlərin surətlərinin çıxarılmasına yol vermir.

7.6. Qoruğun əməkdaşları Azərbaycan Respublikasının ərazisində tarix və mədəniyyət abidələrinin mühafizəsinə və istifadəsinə dair keçirilən seminar və yığıncaqlarda iştirak edə, mədəniyyət işçilərinin təkmilləşdirilməsi kurslarında təhsil və təcrübə mübadiləsi keçə bilərlər.

7.7. Qoruğun strukturu və işçilərinin say həddi qanunvericiliklə müəyyən olunmuş qaydada Nazirlik tərəfindən təsdiq edilir.

## 8. Qoruğun fəaliyyətinin dayandırılması, ləğvi və yenidən təşkili

Qoruğun fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dayandırıla, ləğv edilə və ya yenidən təşkil oluna bilər.